# MİLLİ MAARİFÇİ NƏSR ESTETİKASINDA DİNİ DÜNYAGÖRÜŞÜNÜN YERİ

## *(Ə.Haqverdiyevin "Ata və oğul" hekayəsi əsasında)*



*Təyyar SALAMOĞLU,*
*professor*

*(Əvvəli ötən sayımızda)*

Müəllifin məqsədi öz başlanğıcını İslami dəyərlərdən alan bu xüsusiyyətləri milli xarakterin təbiətinə hopdurmaqdır. Çünki müəllif islami dəyərlərdə həqiqi insanlığın və həqiqi yaşayışın təməl prinsiplərini görür. Ə.Haqverdiyevin kamil insan, şəxsiyyət və vətəndaş düşüncəsində milli və dini mənsubiyyət üz-üzə gəlmir, qarşı-qarşıya durmur, əksinə, bir-birini tamamlayır. Maarifçi realizmin tarixinə və nəzəriyyəsinə dair tədqiqatların birində oxuyuruq: "...Digər yaradıcılıq metodlarından fərqli olaraq maarifçi realist ədəbiyyatda, ümumiyyətlə insandan deyil, fərdi milli keyfiyyətlərə malik vətəndaşdan söhbət gedir" (3,35). Dini mənsubiyyət "milli keyfiyyət" deyil, lakin milli keyfiyyəti tamamlayan keyfiyyətdir. Milli xarakterin müəyyənləşməsində mənsub olduğu dinə tapınmanın da əhəmiyyətli rolu var.

Nəzərə alsaq ki, maarifçi realistlər "müsbət surətlərin simasında gələcəkdə hamının ahəngdar inkişafını təmin edəcək yeni cəmiyyət üzvlərinin xarakter nümunəsini təqdim edirdilər", onda Hacı Xəlili bu "xarakter nümunə"lərdən biri hesab etməyə tam əsasımız var. Yazıçı onun elmə, təhsilə, ailəyə, işə münasibətində, dünyagörüşündə və xarakterində bir bütövlük, kamillik görür. Daha doğrusu, bu bütövlüyü və kamilliyi şərtləndirən bütün cəhətləri Hacı Xəlil obrazının xarakterində cəmləşdirir. Müəllif onu cəmiyyətə nümunə kimi təqdim edir. Bu nümunəviliyə gedən yolun mexanizmi hekayənin birinci hissəsində açılır. Hekayənin birinci mərhələsində və süjetində baş verən hadisələrdə həyatilikdən, gerçəkliyin real təsvirindən çox, süjetin müəllif iradəsi hesabına hərəkəti öndədir. Molla Mirzə Nəsib də, tacir Ağa Hüseyn də, Hacı Xəlil də daha çox müəllif niyyətini gerçəkləşdirən obrazlardır. Həyatda Mirzə Nəsiblərin, Ağa Hüseynlərin, Hacı Xəlillərin olması mümkünsüz bir şey deyildir. Lakin açıq tendensiyalı nəsr nümunəsi kimi bu obrazlar "tipik situasiyada tipik xarakter" yaratmağa hesablanmamışdır. Ə.Haqverdiyev onları müəllif idealının bədii təcəssümü kimi ərsəyə gətirir. Bu məqamda maraqlı olan budur ki, onları kamilləşdirən, bütövləşdirən və milli xarakter səviyyəsinə qaldıran keyfiyyətlər arasında islami dəyərlər dominantlıq təşkil edir. Əslində, Hacı Xəlilin oğluna vəsiyyətləri onun həyat və yaşayış prinsiplərinin ifadəsidir. Birinci süjetin məntiqi bununla müəyyənləşir ki, Hacı Xəlil müsəlman olduğunu heç vaxt yaddan çıxarmadığı üçün və dinin bir müsəlmanın qarşısında qoyduğu tələblərə hörmətlə, inamla yanaşdığı və bu prinsipləri öz həyat prinsipinə çevirdiyi üçün uğur qazanır. Diqqət edilsə, görmək çətin deyil ki, Hacı Xəlilin vəsiyyətlərində İslamın praktik dəyərləri daha çox önə çəkilir və bu vəsiyyətlərdə müəllifin islami dəyərlərə XX əsr prizmasından yanaşması da aydın görünür.

Hacı Xəlilin vəsiyyətlərində elmə, təhsilə yiyələnməyə, elmə, təhsilə yiyələnmək istəyənlərə kömək əli uzatmağa ciddi bir çağırış var. Bu müəllifin dini dünyagörüşü ilə maarifçi düşüncənin birləşməsi zərurətinə inamına bir işarədir. Müəyyən mənada islami dəyərlərə müasir münasibətdir, lakin bu münasibətin kökündə də İslam ehkamları dayanır. Hacı Xəlil - Mirzə Nəsib, Hacı Xəlil – Ağa Hüseyn, Hacı Xəlil – Kərbəlayı Qulaməli münasibətlərini tənzimləyən və yüksək insani dəyərlər səviyyəsinə qaldıran dini dünyagörüşü ilə elmi dünyagörüşünün, elmin, təhsilin harmoniyasını yaratmaqdır, bu iki əsas cəhətin bir şəxsiyyətin dünyagörüşündə özünə yer edə bilməsidir. Çünki vətəndaş olmağın yolu bu harmoniyadan keçir.

Müəllif öz qəhrəmanlarına rəğbətlə yanaşır. Onları oxucuya hörmətlə təqdim edir. Bu da maarifçi realist ədəbiyyat üçün səciyyəvi xüsusiyyətlərdən biridir. Hacı Xəlilin ölümünü maarifçi realist sənətkar oxucuya xəbər verərkən bu xəbərə özünün ağrı-acısını, təəssüf və yanğısını da qatır. Lakin bununla da kifayətlənmir; bütün şəhər əhlinin ölüm xəbərinə acıdığını, təəssüf hissi keçirdiyini vurğulayır. Müəllifin Hacı Xəlilin əməllərinin onun xatirəsini yaddaşlarda yaşadacağına dair fikirlərini də dilə gətirməsi oxuculara təsir məqsədi daşıyır. Burada maarifçi realist nəsrin öz təbliği funksiyasını sona qədər yerinə yetirdiyini görürük: "Hacı Xəlil vəfat etdi. Yəni dünyadan bir şəxs rehlət etdi ki, neçə füqəra əlini tutmuşdu, ac qarınlar doydurmuşdu. Çılpağa libas verməşdi. Ona görə bu şəxs nəinki öz xış və əqvamının, bəlkə, cəmi şəhər əhlinin əlindən getdi.

Xoş o şəxsin halına ki, öləndən sonra onun adı dillərdə diri qala və ehtiram və rəhmətlə yad ola" (1,13).

Müəllif öz qəhrəmanının simasında cəmləşdirdiyi bütün müsbət xüsusiyyətlər öz başlanğıcını Qurandan, Məhəmməd Peyğəmbərin hədislərindən götürür. Ə.Haqverdiyev Hacı Xəlilin inamı, əqidəsi ilə əməlinin bir-birini tamamlamasını ifadə edir. Oğluna vəsiyyətində "heç xəyalından çıxartma ki, müsəlmansan" sözləri Hacı Xəlilin həyat amalı, fəaliyyət proqramının mənbəyi kimi mənalanır. Məhəmməd Peyğəmbərin məşhur hədislərindən birində deyilir: "İnsanların ən yaxşısı başqalarına yaxşılıq edəndir" (6,54). Ə.Haqverdiyev Hacı Xəlilin mənəviyyatının əsasına Məhəmməd Peyğəmbərin hədisindən gələn keyfiyyəti qoyur. Biz Hacı Xəlilin oğluna vəsiyyətlərində, müəlliminin ailəsinin ağır vəziyyətində ona uzanan ələ təmənnasız köməyində, yoxsul, kimsəsiz Kərbəlayı Qulaməliyə ehtiram və hörmətində onun bu hədisdəki göstərişləri həyat tərzinə çevirdiyini görürük.

"Ata və oğul" hekayəsində Ə.Haqverdiyevin maarifçilik düşüncəsini dini dünyagörüşü ilə, mənsub olduğu dinin ehkamları ilə uğurlu şəkildə sintez etməsinin mükəmməl ideya-bədii ifadəsi var. "Ata və oğul"u Y.Qarayevin bu mərhələnin maarifçi realist nəsrinə aid etdiyi Azərbaycan maarifçiliyinin "dindarlaşması" prosesini simvollaşdıran əsər kimi qəbul etmək mümkündür. Görkəmli alim maarifçiliyin M.F.Axundov mərhələsində "Ağıl"ın hökm-fərma olduğunu, onun heç bir şərikinin olmadığını önə çəkir: "Onda (M.F.Axundovda – T.S.) müsbət bəy, mülkədar, ziyalı, nökər surəti var, lakin müsbət ruhani surəti yoxdur" (4,129). Bəlkə də, Azərbaycan maarifçiliyinin tarixində (bunu qəti hökm kimi demək çətin olsa da) "Ata və oğul"dakı Mirzə Nəsib ilk müsbət ruhani – molla obrazıdır. Yeri gəlmişkən, onu da qeyd edək ki, bütün sovet ədəbiyyatşünaslığı boyu davam edən mollaxana, mədrəsə məktəblərinə və burada dərs deyən din xadimlərinə düşmən münasibət yalnız son vaxtlarda, xüsusən akademik İ.Həbibbəylinin və bu sətirlərin müəllifinin tədqiqatlarında yeni və obyektiv baxış sistemilə əvəz edilməyə başlamışdır (Bu barədə geniş bax: Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı. 2009; Salamoğlu T. "Qaranlıq dünya" problemi və Mirzə Cəlilin nəsr qəhrəmanları. "Azərbaycan" jurnalı, 2017, N3-4). Xüsusən İ.Həbibbəylinin tədqiqatlarında dini məktəblərin və orada dərs deyən din xadimlərinin milli tərəqqidə oynadığı mütərəqqi rola dair bütöv bir konsepsiya formalaşdırılmışdır. O, ilk dəfə Cəlil Məmmədquluzadənin təhsilində və fikri inkişafında mollaxana məktəbinin və bu məktəbdə dərs deyən Molla Əli Hüseynzadənin müsbət rolundan danışmış və əslində, ədəbiyyatımızın müxtəlif tarixi inkişaf mərhələlərində yaradılmış molla-ruhani obrazlarına ədəbiyyatşünaslığın obyektiv (sovet ədəbiyyatşünaslığı ənənəsinin təsirindən qurtarmaqla) elmi dəyər verməsinin zamanının gəldiyini əsaslandırmışdır. Akademikin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" kitabında oxuyuruq: "Molla Əli həmin məktəbdə C.Məmmədquluzadəyə ərəb əlifbasını öyrətmiş, şəriətə dair ilkin zəruri məlumatlar vermişdir. O, burada Quran və çərəkə oxumaq qaydalarına yiyələnmiş, namaz qılmaq vərdişlərini daha da təkmilləşdirmişdir. C.Məmmədquluzadə özü də bütün bunları "müdərris Molla Əlinin verdiyi dərslərin" nəticəsi kimi qiymətləndirmişdir... Molla Əlinin məktəbində dini təlimlə yanaşı, əxlaqi məsələlərin mənimsənilməsinə də diqqət yetirilmişdir. Bu məqsədlə Molla Əli Hüseynzadə C.Məmmədquluzadəyə və onun məktəb yoldaşlarına xeyirxah, "əməli-xeyr", "əməli saleh" adam olmağı təlqin etmiş, "oğurluq və adam öldürməyi qəbih əməl qəbiləsindən" saymışdır. Mollaxana mühitində ön planda duran bu cəhətlər Cəlil Məmmədquluzadə üçün az əhəmiyyət kəsb etməmişdir" (5,46).

Ədəbiyyatşünaslıqla ədəbiyyatın ictimai və mədəni həyatı müşahidələrini ümumi bir məcraya gətirsək, görərik ki, İ.Həbibbəylinin obrazını yaratdığı Molla Əli Hüseynzadə, sözün geniş mənasında, elə "Ata və oğul"dakı Molla Mirzə Nəsibin prototipidir. Molla-ruhaninin İ.Həbibbəylinin təfsirində yaradılan tarixi obrazı Ə.Haqverdiyevin müşahidə və ümumiləşdirmələrinin həyatiliyini, tarixi reallığını şərtləndirir. Molla Mirzə Nəsib də öz tələbələrinə "Quran" dərsi ilə bərabər, həyat dərsi də verir, onları sağlam düşüncəli insanlar kimi həyata hazırlayır, həyatda öz qabiliyyətinə uyğun mövqe tutması üçün mümkün olan heç bir yaxşılıqdan, köməkdən çəkinmir. Buna görə də Hacı Xəlil həyatının düzgün məcraya düşməsində bu adamın rolunu hər vaxt minnətdarlıq hissilə xatırlayır, onun ki, Hacı Xəlil "həmişə də Mirzə Nəsibə rəhmət oxuyardı və deyərdi ki, "mənim bir parça çörəyimin səbəbi o mərhum olub" (1,8).

Məhəmməd peyğəmbərin başqa bir hədisində deyilir: "Allah quluna verdiyi nemətin ona təsirini görmək istəyir" (6,54). "Ata və oğul"un ideya-məzmun və bədii strukturu bu hədisi də çıxış nöqtəsi kimi alır. Birinci süjetin məntiqi ona gətirib çıxarır ki, Hacı Xəlil varlandıqca (əslində Allahın quluna verdiyi nemətlərin miqdarı çoxaldıqca) daha çox özünü dərk edir, əldə etdiyi nemətlərin Allah tərəfindən ona qismət edildiyini başa düşür, bu nemətlərə heç bir halda və heç bir vəchlə haram qatmır, nəfsinə ömrünün sonuna qədər hakim olmağı bacarır, özünü Allahın muti qulu hesab edir, Allah qarşısında borclarını bir müsəlman kimi həmişə dəqiqliklə yerinə yetirir. "Əlli yaşına yetişəndə Məkkeyi-mükərrəməni ziyarət edib hacı ləqəbi ilə müqəlləb oldu" (1,11). Yazıçı dünyagörüşünün bədii məntiqlə ifadəsinə görə, "iki böyük evi və milyondan ziyadə pulu" Allah Hacı Xəlilə ona görə nəsib eləmişdi ki, "quluna verdiyi nemətin ona təsiri"ndən razı qalmışdı. Belə bir dini deyim var: Verən də Allahdır, alan da. Hekayənin inkişaf xətti, süjetin hərəkət məntiqi ona tabe tutulur ki, Allah bəndəsinin işindən, əməlindən və əqidəsindən razı qalanda bütün mənalarda verən əlini əsirgəmir, əksinə olanda isə o öz bəndəsinə güzəştə getmir. "Ata və oğul"un ikinci süjet xətti Allah "quluna verdiyi nemətin" ona təsirindən razı qalmadığı məqamın nəticələrini ifadə edir.

Atadan qalan böyük miras tez bir zamanda Əkbərin əlindən çıxır və onun həyatı faciə ilə nəticələnir. Nə üçün? Çünki, Əkbər atasının ona vəsiyyətlərinin heç birinə əməl etmir; anasına, Kərbəlayı Qulaməliyə münasibətdə "Vəsiyyət"in şərtlərini kobud şəkildə pozur. Elədiyi səhvlərdən nəticə çıxarmır, "yaman yoldaşdan, oğul, həmişə uzaq qaç" vəsiyyətini çox tez yadından çıxarır. Özünün elmə, təhsilə rəğbəti olmadığı üçün (atasının sözlərindən öyrənirik ki, işqoladan yarımçıq çıxıb) savadın, elmin, təhsilin insanın həyatında oynadığı rolun mənə və mahiyyəti başa düşmür. Nadan və cahil qaldığı üçün atasının vəsiyyətində "elm axtaran fəqir uşaqlarına gömək elə" tapşırığına da əhəmiyyət vermir. Deməli, atasının vəsiyyətinə rəğmən, Əkbər müsəlman olduğunu çox tez yadından çıxarır və buna görə də faciəli talе yaşayır.

Ədəbiyyatşünaslıqda "Ata və oğul" hekayəsinə "atalar və oğullar" problemi kontekstində də şərhlər verilmişdir. Prof. M.Məmmədov yazır: "Atalar və oğullar" məsələsi Ə.Haqverdiyev yaradıcılığı üçün də təzə məsələ deyildi" (2,64). "Ata və oğul" hekayəsi ilə bərabər, müəllifin "Bəxtsiz cavan" faciəsində qoyulan problemləri "atalar və oğullar" kontekstində həll etməyə çalışmasından danışan prof. M.Məmmədov hesab edir ki, "faciədə ("Bəxtsiz cavan"da – T.S.) dramaturqun əsas tənqid hədəfi Hacı Səməd ağanın timsalında reiyyəti adam yerinə qoymayan, köhnəlikdən dördəlli yapışan "mühafizəkar "atalar"dırsa, hekayədə, əksinə, əxlaqi-məişət düşgünü olan fərsiz oğullardır" (2,64). Prof. M.Məmmədov "atalar və oğullar" probleminin bədii həllində oğulun daşıdığı ideya "yük"ünü belə müəyyənləşdirir: "...hekayədə təsvir olunan Əkbər, əksinə, atanın dediklərinə məhəl qoymayan, ictimai idealdan məhrum, pozğunlaşmış burjua ziyalılarının timsalıdır" (2,65). "Atalar və oğullar" probleminin bədii həllinə verilən bu elmi açılışın qnesioloji kökləri ənənəvi ədəbiyyatşünaslıq düşüncəsinə bağlıdır və daha çox ideoloji-sosioloji mahiyyət daşıyaraq, obrazları sinfi zəmində dəyərləndirməyə üstünlük verir. "Atalar və oğullar" probleminin bu cür dəyərləndirməsilə razılaşsaq belə, bu halda hekayədə "atalar"ın daşıdığı estetik "yük"ün mahiyyəti açılmamış qalır. Əslində, bu tip mənalandırmada "atalar"ın rolunun üstündən sükutla keçilməsi təsadüfi deyildir. Yuxarı təbəqənin daşıyıcısı olan obrazın yazıçı tərəfindən tam müsbət tendensiya ilə təqdimi obrazların xarakterini sinfi mənsubiyyətindən asılı olaraq qiymətləndirməyə vərdiş etmiş ədəbiyyatşünaslıq üçün bir növ anlaşılmaz qalır.

*(Davamı 5-ci səhifədə)*

# MİLLİ MAARİFÇİ NƏSR ESTETİKASINDA DİNİ DÜNYAGÖRÜŞÜNÜN YERİ

## (Ə.Haqverdiyevin "Ata və oğul" hekayəsi əsasında)

*(Əvvəli 4-cü səhifədə)*

Bu cür hallar ədəbiyyatşünaslıqda çox vaxt müəllif dünyagörüşündəki ziddiyyətlə, mühafizəkarlıqla izah olunur. Fikrimizcə, "atalar və oğullar" qarşıdurması əsərdə hadisələrin ümumi inkişaf xətti və tendensiyasına tam uyğundur və müəllif mövqeyinin açılışında həlledici rola malikdir. Hekayənin ümumi inkişaf xətti və tendensiyası "atalar və oğullar" probleminin arxasında Şərq-Qərb, başqa sözlə, müsəlman-xristian dünyası əlaqələrinin mürəkkəb xarakterinin dayandığını düşünməyə əsas verir. Maarifçi realistlərin yaradıcılığında Qərbə meyl təmayülü bu realizmin inkişafının bütün mərhələlərində olmuşdur. Bu meylin əsas səbəblərindən biri Avropanın iqtisadi cəhətdən inkişafı, Avropada maarifçilərin milli ideallarında mühüm yer ayırdıqları elmə, təhsilə daha çox əhəmiyyət verilməsi ilə bağlı idisə, bir səbəbi də maarifçi sənətkarların "dünyagörüşləri və baxışlarının formalaşmasında rus və Avropa mühitinin xüsusi rol oynaması" (3,38) ilə izah oluna bilər. Lakin zaman keçdikcə maarifçiliyin tarixi təkamülündə Qərbə birmənalı üstünlük vermək tendensiyası azalmağa başlayır. Ədəbiyyatşünaslıq maarifçi realist təcrübəni daha dərindən ümumiləşdirdikcə XIX əsrin sonu, XX əsrin əvvəllərində Qərbə yanaşmadakı tipoloji fərqi duya bilmişdir. Son nəzəri tədqiqatların birində oxuyuruq: "Artıq bu realizm Qərbi Şərqə gətirməkdən çox, öz ənənələri üstündə dünya ilə əlaqə quran Şərqi Qərbə çıxarma probleminin həllinə yönəldilmişdi" (7,44). Maarifçi realizmin sözügedən mərhələsində Qərbə münasibətin tipoloji müxtəlifliyini nəzərə alsaq, bu müxtəlifliyin variantlarından biri kimi "öz ənənələri üstündə" duran Şərqin Qərbə doğru irəliləməsi ilə bərabər, Şərq-Qərb qarşılaşmasında Şərq dünyasının, müsəlman cəmiyyətinin məhz, öz ənənələri üstündə duraraq, bu ənənələri inkişaf etdirərək dünyaya məhz Şərq, müsəlman dünyası kimi çıxmaq tendensiyasının da yer aldığını görmək mümkündür.



"Atalar və oğullar" bu tendensiyanı müdafiə mövqeyindən yazılmışdır. Hacı Xəlilin bütün maddi və mənəvi dünyası ilə Şərqi, müsəlman aləmini metaforalaşdırdığını, oğlu Əkbərin isə Qərb dünyası haqqında təsəvvürlərin bir eyforiya olduğunu metaforalaşdırdığını nəzərə alsaq, müəllifin məsələlərə tam ayıq bir düşüncə ilə bədii həll verdiyini görmək mümkündür. Şərq-Qərb qarşıdurmasının öz pik məqamına çatdığı indiki zamanda müəllifin Qərb dünyasının rəzalətlərini görmək istedadı heyrət doğurmaqla bərabər, əsərin müasirliyinin şərtləndirən əsas amil rolunda çıxış edir.

### *İstifadə olunmuş ədəbiyyat*


*1.Haqverdiyev Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı. Lider Nəşriyyat, 2005.*

*2.Məmmədov M. Əbdürrəhimbəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı. Nurlan, 2008.*

*3.Məmmədov X. XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycan maarifçi realist ədəbiyyatı. Bakı. APİ-nin nəşri, 1978.*

*4.Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980.*

*5.Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı. "Naxçıvan" nəşr., 2009.*

*6.Həmidullah M. İslama giriş. Bakı. Qismət, 2006.*

*7.Tahirə M. Ədəbiyyat müasir elmi yanaşma kontekstində. Bakı. "Xan" nəşr., 2016.*